# TARİXİ ƏDALƏTİN BƏRPASI UĞRUNDA MÜBARİZƏ

Məlum olduğu kimi, Ermənistanın aqressiyası nəticəsində 1988-1993-cü illərdə Ermənistan Respublikasından 350 000-dən artıq, Dağlıq Qarabağ və ətraf rayonlardan isə 830 000-dək, yəni ümumilikdə 1 200 000-ə yaxın soydaşımız daimi yaşadıqları ata-baba yurdlarından, tarixi Azərbaycan torpaqlarından məcburi olaraq çıxarılmış və həmin insanlarımız 30 ilə yaxındır ki, qaçqın və köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışdılar. Bu təcavüzün nəticəsi olaraq ölkəmizin 20% ərazisi işğal edilmişdi.

İşğalçılıq müharibəsi zamanı erməni millətçiləri azərbaycanlı əhaliyə qarşı bir sıra soyqırım cinayətləri törətmişlər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində əsrin ən dəhşətli faciələrindən biri baş verdi. Soyqırım aktı nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır.

1994-cü ilin mayında bağlanılmış atəşkəs haqqında razılaşmaya baxmayaraq, təcavüzkar tərəf həm Dağlıq Qarabağ və ətraf rayonlardakı mövqelərindən, həm Ermənistan-Azərbaycan dövlət sərhəddindən ərazilərimizi, mülki əhali də daxil olmaqla atəşə tuturdu. Münaqişə üzrə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvəlinin işğal etdikləri Azərbaycan ərazilərindən çıxarılmasını nəzərdə tutan 4 Qətnaməsi də icra olunmadan qalmaqda idi. BMT TŞ-nin 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 nömrəli qətnamələrdən, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62-243 nömrəli qətnamədə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir.

Ermənistan tərəfi bu işğalı gələcəkdə nə vaxtsa legitimləşdirmək fikri ilə mövcud işğal vəziyyətini, yəni status-kvonu saxlamaqda maraqlı idi. Lakin, bu Azərbaycan dövləti və xalqı bu vəziyyətlə heç vaxt barışmayacağını hər addımda bildirirdi və işğal altında olan əzəli torpaqların, qanuni ərazilərinin mütləq azad olunmasını tələb edirdi.

Son illərdə Ermənistanda hakim olan qüvvələrin Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq hüququn prinsiplərini tapdalayan müntəzəm aqressiv addımları və bunun davamı olaraq 2020-ci il sentyabr ayının 27-də törətdikləri hərbi təxribat – cəbhə xətti boyu ağır hərbi texnika ilə hücum etmələri, bununla yanaşı mülki əhalimizin də hədəf alınması 2-ci Qarabağ müharibəsinin zəruriliyini şərtləndirdi.

Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında respublikamızın ərazisində qanunsuz yerləşdirilmiş işğalçı erməni silahlı birləşmələrinin təxribatına layiqli cavab verərək, Azərbaycan dövlətinin ərazisində doğma torpaqlarımızı işğalçılardan azad etmək və öz suverenliyini bərpa etmək üçün uğurlu əks-hücum əməliyyatlarına başladı. İşğal altında olan tarixi Azərbaycan torpaqları rəşadətli Azərbaycan Ordusu tərəfindən yüksək döyüş taktikası və bacarıqlı və uğurlu hərbi

əməliyyatlarla addım-addım düşmən tapdağından azad edildi. Uzun fasilədən sonra yenidən doğma torpaqlarda üçrəngli şanlı bayrağımız ucaldıldı! Bu Qələbənin nüvəsini Ali Baş Komandanımızın siyasi iradəsi və müdrikliyi, Azərbaycan Ordusunun yüksək hərbi qabiliyyəti və döyüş ruhu və dövlətlə xalqın sarsılmaz birliyi təşkil etdi.

Azərbaycan dövləti və xalqı tarixi ədalətin bərpası uğrunda var qüvvəsi ilə mübarizə apardı və qalib gəldi.

Bu mübarizənin zərurətinə və tarixən gedişatına bir az geniş nəzər salaq.

Azərbaycan tarixinin son 2 əsri məhz qonşu olmaq məcburiyyətində olduğumız ermənilərin məkrli iddialarının acı nəticələrinin vurduğu yaraların sarılması və dəyanətlə bu təzyiqə qarşı dayanmaqla xalqımızın yaddaşında qalmışdır.

İran və Rusiya arasında 1804-1813-cü illərdə aparılan müharibənin nəticəsində 1813-cü ildə Gülüstan müqaviləsi bağlanıldı və Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisi, habelə Şərqi Gürcüstan və Dağıstan Rusiyanın ixtiyarına keçdi. İranla Rusiya arasında 1826-1828-ci illlərdə gedən müharibə isə, Türkmənçay müqaviləsi ilə nəticələndi və həmin müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqları da Rusiyaya keçdi. Türkiyə ilə Rusiya arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə, Ədirnə sülh müqaviləsi bağlanıldı.

Tükmənçay müqaviləsinə görə 40 000 ermənininin, Ədirnə müqaviləsinə görə isə, 90 000 ermənininin İran və Anadoludan Tiflis, İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi razılaşdırılmışdı və bununla da ermənilərin Azərbaycan torpaqlarına kütləvi yerləşdirilməsi və yerli əhalinin sıxışdırılması başlandı.

Məşhur rus diplomatı və yazıçısı A.S.Qriboyedov yazırdı: “Erməni əhalisi əsasən müsəlman torpaq sahiblərinin ərazilərində yerləşdirilirdilər ... onlar yavaş-yavaş müsəlman əhalisini ərazilərdən sıxışdırıb çıxarmağa başlamışdılar. Biz həmiçinin, müsəlman əhalisini düşdükləri çətin vəziyyətlə barışdırmağa və onları inandırmağa çalışmalıyıq ki, bu çətinliklər uzun sürməyəcək və ermənilər müvəqqəti onlara yaşamağa icazə verilən ərazilərdə daimi olaraq qalmayacaqlar”.

Ermənilərin Azərbaycan torpaqlarına yerləşməsi sonralar da kütləvi şəkildə aparılmaqda davam etmişdi. Statisik göstəricilərə görə, yalnız 1828-1920-ci illər arasında Azərbaycana 560 000 erməni köçürülmüşdür.

20-ci əsrin əvvəllərindən başlayaraq isə, ermənilər məskunlaşdıqları ərazilərdə öz dövlətlərini yaratmaq ideyasını gerçəkləşdirmək üçün hər cür imkanlardan istifadə etməyə başladılar.

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı öz məkrliliyi və vəhşiliyi ilə ayrıca seçilən cinayətləri nəticəsində soydaşlarımız hələ 1905-1920-ci illərdə təcavüzə və soyqırımına məruz qalmışdır.

Belə ki, 1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabının nəticəsində, milliyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Bu bir fakt idi ki və erməni millətçiləri də həmin vaxt etiraf edirdilər ki, Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısındadır, əslində həmin ordu Erməni Milli Şurasına tabedir. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və Daşnaksütundan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı qırğınlar törətdilər. Bu dəhşətli soyqırım nəticəsində 30 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca, İrəvan quberniyasının (keçmiş İrəvan xanlığı) ərazisində erməni dövləti (Ermənistan SSR) yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv km-dan 29,8 min kv km-ə çatdırılmışdır.

Ermənistan ərazisində qalan ata-baba torpaqlarında yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə "Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edildi. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış oldu və Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyuldu.

Sonra, sovet hakimiyyəti illərində, xüsusilə də 1948-1953-cü illərdə erməni millətçilərinin sovet dövlətinin rəhbərliyində olan vəzifəli şəxslərlə işbirliyi, yəni ermənilərin azərbyacanlıları sıxışdıraraq çıxarmaq barədə məkrli tələbləri, sovet dövlətin rəhbərliyində olan şəxslərə isə, bu planın müəyyən geosiyasi məsələlərə görə sərf etməsi və buna dəstək verməlari nəticəsində azərbaycanlılar Ermənistan SSR ərazisindəki əzəli, doğma torpaqlarından indiki Azərbaycan Respublikası ərazisinə köçmək məcburiyyətində qalmışlar.

1948-1953-cü illəri deportasiyası nəticəsində dövlət səviyyəsində "könüllü köçürülmə" adı ilə Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların əmlakı mənimsənilmişdi.

Nəhayət, son sıxışdırma və təcavüz dalğası 1987-1988-ci illərdən başladı və azərbaycan xalqı üçün qeyd etdiyimiz faciəvi nəticələrə səbəb oldu.

Ermənilərin son 2 əsr boyu apardıqları bu millətçilik və xəyali "böyük dövlət yaratmaq" ideyalarını həyata keçirmək məqsədilə azərbaycanlıları sıxışdırmaq və öz torpaqlarından çıxarmaq və bunun üçün hər cür məkrli, alçaq, vandal üsullardan istifadə etmələri bu prosesin sistematik, düşünülmüş və qəsdən olmasını aydın şəkildə göstərir.

Erməni millətçilərinin məskunlaşdıqları ərazilərdə “Böyük Ermənistan” yaratmaq istəkləri, onların tarixdə həmişə böyük dövlətlərin əhatəsində olmaqla yarada bilmədikləri stabil dövlətçiliyi xəyallarında qurduğu və həyata keçirmək istədikləri radikal millətçi bir ideya olmuşdur. Onlar bu illüziyalaşdırılmış ideyaya sadə erməniləri inandıra və onları öz arxalarınca apara bilmişlər. Bu məqamda Aleksandr Dümanın (Fransız yazıçısı və səyyah) aşağıdakı sözləri yada düşür: ”Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər.”

Əsasən xaricdən təşkilatlanan bu radikal millətçi hərəkatla onlar gerçək tarixi öz xeyrinə saxtalaşdıraraq inandıqları xülyaları reallaşdırmaq fikrinin zəruriliyinə beynəlxalq ictimaiyyəti də inandırmağa müəyyən dərəcədə nail olmuşdular. Bu da bir gerçəklikdir ki, xaricdəki bəzi böyük güclər Qafqaz regionundakı maraqlarına görə, erməniləri dəstəkləmiş və bu onların azərbaycanlıları sıxışdırmaq və öz torpaqlarından çıxarmaq prosesindən faydalanmağa çalışmışlar.

Amma göründüyü kimi, erməni millətçilərinin saxta ideologiyalarını gerçəkləşdirmək iddiasının mərhələ-mərhələ gerçəkləşdirməsi və bunun xaricdən himayə olunması, zaman-zaman Azərbaycan xalqı üçün böyük itkilərə, regionda nizamın pozulmasına və tarixi ədalətin pozulmasına yol açmışdı.

Azərbaycan xalqının xeyli hissəsi səbəbsiz və haqsız yerə öz yurdundan qovulmuşdu, Azərbaycan dövləti özünün 20% hissəsini təşkil edən ərazisində yurisdiksiyasını tətbiq edilə bilmirdi, həmin ərazi qanunsuz şəkildə, beynəlxalq hüquq prinsipləri və normaları tapdalanma separatçılar tərəfindən qondarma şəkildə idarə olunur, eyni zamanda  kriminal fəaliyyətlər məqsədilə istifadə edilirdi.

Erməni separatçıları işğal etdikləri torpaqların onlarınkı olmasına əmin deyildilər, burada heç bir inkişaf olmamışdı. İşğal altında olan ərazilərin, oradakı infrastrukturun və yaşayış məntəqələrinin mövcud bərbad, hələ 30 il əvvəlkindən də pis vəziyyəti bunu əyani göstərir.

Müharibə günlərində də ermənilərin hərbi qaydalara uyğun düzgün şəkildə döyüşməyi də bacarmadıqları, döyüşçü sayını artırmaq üçün xaricdən muzdlular, terrorçular (PKK-YPG, ASALA terrorçularını) gətirmələri də onların bu torpaqlarda özlərini müvəqqəti olmalarını bildiklərini sübut edir. Onlar konkret döyüş əməliyyatları aparıldığı halda döyüşü qazana bilməyəcəklərini görüb daha çox təxribatla məşğul olurdular, müharibə zonasından kənar əraziləri atəşə tuturdular, dağıntılar və tələfat törədirlər, mülki insanları atəşə tuturdular və 3-cü qüvvələri konfliktə cəlb etmək istəyirdilər.

Bu günlərdə biz həm də gördük ki, ermənilər öz qərəzli iddialarını həyata keçirmək üçün beynəlxalq ictimaiyyəti aldatmaq məqsədilə bütün hər cür yollara və bütün səviyyələrdə yalana və iftiraya əl atırlar. Onların təsiri altında olan bəzi xarici media qurumlarında, haqlı olduğu halda Azərbaycanın əleyhinə birtərəfli, qərəzli informasiyalar yayımlanırdı.

Bütün dünya bir sadə həqiqəti anlamaq istəmirdi ki, ermənilərin qərəzli, məkrli planlarını həyata keçirərək Dağlıq Qarabağda 120 000 ermənin monoetnik, daha sərbəst və "ərköyün" yaşaması üçün 1 200 000 azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşmüşdü, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfərdən çox azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Dünyanın böyük hissəsi bu qlobal miqyaslı faciəyə və ədalətsizliyə laqeyd qaldı.

Lakin, Azərbaycan dövləti və xalqı bu faciələrə və çətinliklərə rəğmən, ayaq üstə durmaqda davam etdi və bütün sahələrdə inkişaf yolunu tutdu.

...Nəhayət, gözlədiyimiz tarixi vaxt gəlib çatdı.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Qarabağ probleminin tarix və taktika baxımından həlli ilə bağlı çox gözəl demişdir: "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm."

2020-ci il dünya miqyasında çətin bir il oldu, xalqlar və dövlətlər üçün bir sınaq ili oldu. Belə bir mürəkkəb şəraitdə Azərbaycan üçün isə, bu sınaq daha ağır oldu. Lakin, nə xoşbəxtik ki, Ali Baş Komandanımızın uğurlu rəhbərlik təcrübəsi və Ordumuzun zəfərli əməliyyatları sayəsində dövlətimiz və xalqımız bu sınaqdan üzüağ, qalib çıxdı.

Bəlkə təsadüfdür, bəlkə də tarixi ədalətin bərpasının rəqəmlərlə simvolik xatırlatmasıdır... Tarixə rəqəmlərlə diqqət etsək, görürük ki, Azərbaycan torpaqlarının bölünməsi və ermənilərin torpaqlarımıza yerləşdirilməsinə səbəb olmuş İran-Rusiya müharibəsinin nəticələrini müəyyən edən Gülüstan müqaviləsinin danışıqları 1813-cü il məhz sentyabrın 27-də başlanılmışdı. 2 əsr sonra, 2020-ci ildə, məhz sentyabrın 27-də 27 illik işğaldan sonra Qarabağımızın və ətraf rayonlarımızın azad olunması əməliyyatları başladı və xalqımız və Vətənimiz üçün pozulmuş tarixi ədalət bərpa olunmağa başladı. Artıq 27 sentyabr günü bizim üçün Böyük Zəfərin başlanğıcı kimi tarixdə qalacaqdır.

Zəfər tariximiz Azərbaycan dövlətinin, Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya göstərdi.

Azərbaycan dövlətinin və Azərbaycan xalqının apardığı çoxillik mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Tarixi ədalət bərpa olunmağa başladı.

Əminik ki, uzun illər ərzində ölkəmizin müstəqilliyinə və təhlükəsizliyinə təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli Azərbaycanımızın daha da inkişaf edərək regional güc mərkəzlərindən birinə və daha da inkişaf etmiş qüdrətli dövlətinə çevrilməsinə yol açacaqdır. Bu yolda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizə və qəhrəman xalqmıza daimi uğurlar arzulayırıq.

Yaşasın, Ali Baş Komandan cənab İlham Əliyev! Yaşasın müzəffər Ordumuz! Yaşasın, Azərbaycan xalqı!

Qarabağ Azərbaycanın əzəli torpağı olmuşdur və yenə də "Qarabağ Azərbaycandır!"

**Hüseyn Məmmədov**

**2 saylı Bakı "ASAN xidmət" mərkəzində notariat ofisinin notariusu, Azərbaycan Notariat Palatasının İdarə Heyətinin sədri**